# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 09 (1670) 15 may 2018 - ci il Qiymıəti 50 qəpik


# Prezident İlham Əliyev Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak edib

**Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verdi. Bildirildi ki, bu liman birinci kateqoriya limanlar üçün müəyyən edilmiş texniki tələblərə uyğun layihələndirilib və inşa olunub...

Dövlətimizin başçısı Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışını bildirən düyməni basdı...

Kompleksə tanışlıqdan sonra dövlətimizin başçısı limanın əməkdaşları və inşaat şirkətlərinin nümayəndələri ilə görüşdü.

Sonda xatirə şəkli çəkdirildi.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tranzit potensialının artırılması, beynəlxalq daşımaları təmin edən müasir infrastrukturun yaradılması və nəqliyyat parkının yeniləşdirilməsi üzrə işlər daha intensiv xarakter alıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası kimi mühüm əhəmiyyət kəsb edən layihələrin icrası Azərbaycanın iqtisadi qüdrətini artırmaqla yanaşı, beynəlxalq mövqelərini də möhkəmləndirir.



## BU SAYIMIZDA




Ulu öndər Heydər Əliyevin 95-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib 2

Milli Ordumuzun 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans 3



Hacettepe Universiteti ilə əməkdaşlıq gücləndirilir 3






ATU rezidentlərinin 6-cı (ATUREK 6) elmi-təcrübi konfransı 4



Rektor İkinci Dünya Müharibəsinin veteranlarını mükafatlandırıb 2

# Ulu öndər Heydər Əliyevin 95-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib

**❍ Azərbaycan Tibb Universitetində ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbir iştirakçıları ilk öncə universitetin foyesində ulu öndər Heydər Əliyevin büstünün önünə tər çiçəklər düzüb, onun xatirəsini yad ediblər.**




Tədbiri giriş nitqi ilə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli xalqımızın ümummilli lideri Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə onu geridə qalmış aqrar ölkədən qabaqcıl sənaye və mədəniyyət ölkəsinə çevirməsini önə çəkib. Ötən əsrin 90-cı illərində isə hakimiyyətə ikinci dəfə qayıdışında müstəqilliyin möhkəmləndirilməsi, əbədi və dönməz xarakter alması yolunda göstərdiyi çox böyük xidmətlərdən bəhs edib. Ulu öndərin səhiyyə sahəsinin inkişafı istiqamətində əvəzsiz işlər gördüyünü deyən G.Gəraybəyli, tibb müəssisələrinin əsaslı təmir edildiyini, yeni səhiyyə ocaqları tikildiyini və müasir avadanlıqlarla təchiz olunduğunu xatırladıb. Rektor həmçinin Heydər Əliyevin universitetimizin həyatında olan rolundan da bəhs edib. Onun sözlərinə görə, ümummilli lider hələ XX əsrin 70-80-ci illərində ilk dəfə respublikaya rəhbərlik etdiyi dövrdə Tibb İnstitutuna xüsusi diqqətlə yanaşıb. Ulu öndərin qayğısı nəticəsində ATU-da zəngin maddi-texniki baza yaradılıb, tədris korpusları, tələbə yataqxanası, və xəstəxanalar tikilərək istifadəyə verilib, elmi-tədqiqat laboratoriyaları müasir cihazlar və avadanlıqla təchiz edilib.



Rektor qeyd edib ki, Heydər Əliyev kimi şəxsiyyətlər tarix boyunca nəinki unudulmur, əksinə, illər ötdükcə, zaman keçdikcə o, özünün böyüklük və əzəməti ilə sanki yenidən doğulur.

Nəsimi Rayon Yeni Azərbaycan Partiyasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı Heydər Əliyevi xalqımızın dünəninin, bu gününün qurucusu, gələcəyinin qarantı kimi qiymətləndirdi: "O, özünün xilaskarlıq missiyasını yerinə yetirərək Azərbaycanı 90-cı illərin ağır siyasi və hakimiyyət böhranından xilas etdi, yeni neft müqavilələri imzaladı, onun təşəbbüsü ilə paytaxtımızda çoxlu beynəlxalq iqtisadi və mədəni tədbirlər keçirildi. Ulu Öndərin apardığı müdrik və gələcəyə hesablanmış siyasətlə dünyanın bütün diqqətinin ölkəmizə yönəlməsinə nail oldu". Heydər Əliyevin çox çətin bir dövrdə Azərbaycan xalqının tələbi ilə respublikanın siyasi rəhbərliyinə qayıtdığını vurğulayan M.İbrahimqızı qeyd edib ki, ümummilli liderin rəhbərliyi altında qısa müddət ərzində ölkədə ordu və dövlət quruculuğu, ölkədaxili sabitlik və təhlükəsizlik təmin edilib. Məlahət İbrahimqızı bu böyük şəxsiyyətin xalqımız, millətimiz qarşısındakı əvəzsiz xidmətlərini yada salıb. O, Ulu Öndərlə bir dövrdə yaşadığı üçün özünün iftixar hissi keçirdiyini, bugünkü orta nəslin isə belə müdrik şəxsin müasiri olduğu üçün fəxr etməyə haqqı çatdığını söyləyib.

Tədbirdə çıxış edən I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti Nağdəli Zamanov ulu öndər Heydər Əliyevin nitqlərində estetik kateqoriyaların necə işlənməsi barədə düşüncələrini bölüşüb. O, Heydər Əliyevin həm fəlsəfədə, həm də tarixdə uzun diskussiyalara səbəb olan bir alim olduğunu bildirib. N.Zamanov dahi rəhbərin tibb ictimaiyyəti, həkimlərlə keçirdiyi görüşlər barədə danışıb və həmin tədbirlərdə xalqımızın böyük oğlunun verdiyi məsləhət və tövsiyələri bir daha xatırladıb.

Daha sonra ATU- nun tələbəsi Pəri Məhərrəmova ulu öndərin gənclərə göstərdiyi diqqət və qayğıdan danışıb və bu dahi şəxsiyyət haqqında öz ürək sözlərini dilə gətirib. O, Ulu Öndərin təhsilə, gənc kadrların hazırlığına böyük əhəmiyyət verdiyini, yetişməkdə olan nəslin varislik, atababaların ən yaxşı adət-ənənələri ruhunda tərbiyə olunmasına çalışdığını söyləyib.

Bundan sonra ulu öndər Heydər Əliyevin ömür yolundan bəhs edən sənədli televiziya filmi nümayiş olunub.

Toplantı Şuşanın 8 may işğal gününə təsadüf etdiyindən tədbir iştirakçıları bu şəhərin müdafiəsi zamanı şəhid olan insanların ruhunu da yad etdilər.

Sonda ATU-nun bir qrup tələbəsinə 11 aprel Prezident seçkilərində göstərdikləri fəallığa görə YAP- ın Nəsimi rayon təşkilatı tərəfindən xüsusi mükafat və hədiyyələr təqdim olundu.

**Mənsur ƏLƏKBƏRLİ**

# Rektor İkinci Dünya Müharibəsinin veteranlarını mükafatlandırıb

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli bu ali təhsil ocağında çalışan İkinci Dünya Müharibəsi veteranları ilə görüşüb. Görüş zamanı G.Gəraybəyli 9 May Qələbə Günü münasibəti ilə ATU heyəti adından veteranları təbrik edilib.**



Görüşdə professor G.Gəraybəyli qeyd edib ki, miqyasına, törətdiyi dağıntılara və insan tələfatına görə İkinci Dünya Müharibəsi tarixin ən dəhşətli savaşı sayılır. Rektor alman faşizminə qarşı döyüşlərdə 700 mindən çox azərbaycanlının vuruşduğunu, onların yarıdan çoxunun həlak olduğunu diqqətə çatdırıb: "Qələbənin qazanılmasında Azərbaycanın igid oğul və qızlarının layiqli töhfəsi olub. Yüz minlərlə həmvətənimiz bu qələbə uğrunda canlarından keçiblər. Milli Azərbaycan diviziyaları müharibə tarixinə parlaq səhifələr yazmış, vətəndaşlarımız döyüşlərdə, o cümlədən arxa cəbhədə qəhrəmanlıq və böyük fədakarlıq göstərmişlər. Biz indiki firavan yaşayışımızın əldə olunmasında müəyyən mənada həmin qələbəyə, babalarımızın cəsarətinə borcluyuq".

Görüş zamanı çıxış edən veteranlar onlara göstərilən diqqət və qayğıya görə dövlətə və ATU-nun rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər. Dövlət tərəfindən göstərilən diqqət və qayğıdan razılıqlarını bildirən veteranlar Azərbaycanın qəhrəman oğullarının rəşadətindən danışmış, xatirələrini bölüşüblər. Bildirilib ki, ulu öndər Heydər Əliyev tərəfindən bu bayrama xüsusi önəm verilməsi və həmin ənənənin bu gün də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən davam etdirilməsi xalqımızın tarixi qəhrəmanlığına verilən qiymətin göstəricisidir.

Sonra Qələbənin 73-cü ildönümü ilə əlaqədar ATU-da çalışan veteranların mükafatlandırılması haqqında rektorun əmri oxunub və onlara hədiyyələr təqdim olunub. Əmrə əsasən, arxa cəbhə veteranları - ATU-nun Kommunal və qidalanma gigiyenası kafedrasının professoru Maqsud Qasımov, Uşaq və yeniyetmələrin gigiyenası kafedrasının dosenti Rəhim Orucov universitet rəhbərliyi tərəfindən pul mükafatı ilə mükafatlandırılıblar.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

# Prorektor imtahan-nəzarət qrupunun üzvləri ilə görüşüb

**❍ İmtahan-nəzarət qrupunun üzvləri ilə görüşən ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev imtahana hazırlıq işlərinin vacibliyinə toxunub.**



Bu baxımdan imtahan nəzarətçilərinin üzərinə düşən vəzifələri önə çəkərək qeyd edib ki, əsas məqsədimiz imtahanın gedişi zamanı tələbələrin müəyyən texniki vasitələrdən istifadəsinin qarşısını almaqdır: "Bu il bütün tələbələrin üzərləri mühafizəçilərimiz tərəfindən xüsusi aparatlarla yoxlanılacaqdır. Bundan əlavə, tələbələrlə qabaqcadan elə iş aparmaq lazımdır ki, onlar qeyri-qanuni yolla imtahanda müvəffəqiyyət qazanmağın mümkünsüzlüyünə inanaraq, ancaq öz biliklərinə arxalansınlar".

Yeri gəlmişkən, Təhsil Nazirliyinin 2017-2018-ci tədris ilini keyfiyyət ili elan etdiyini xatırladan prorektor imtahanın nəticələrinin ilk növbədə dekanlıqların fəaliyyətinin göstəricisi kimi qiymətləndiriləcəyini deyib. Ona görə də bu məsələlərdə dekanlıqların kənarda durmamalarını, imtahanın gedişini diqqətlə izləməyi tövsiyə edib.

Virtual Test Mərkəzinin rəhbəri, dosent Şahin Bayramov da nəzarətçiləri məsuliyyətli olmağa çağıraraq bildirib ki, imtahan zalında sakitçiliyin yaradılması və texniki qurğuların daşınmaması ən zəruri şərtlərdir: "Hətta ən ucuz texniki avadanlıq vasitəsi ilə informasiyanı 14 metr məsafədən qəbul etmək olur. Amma bunun üçün tələbə sualları mütləq oxumalıdır ki, istədiyi cavabı eşitsin. Deməli, bu cür halların qarşısını almaq üçün zalda mütləq sakitlik hökm sürməlidir. Yəni tələbələrin, eləcə də nəzarətçilərin imtahan zalında söhbət etməsi yolverilməzdir. Nəzarətçi tələbədə mobil telefon görərsə, onu dərhal imtahan zalından çıxarmalı, özü də telefondan istifadə etməməlidir. Tələbə öz səhifəsinə girəndən sonra yerini dəyişə bilməz".

Əczaçılıq fakültəsinin dekanı, ictimai əsaslarla imtahan-nəzarət qrupuna rəhbərlik edən dosent Kamandar Yaqubov nəzarətçilərin işi ilə bağlı mövcud təlimatın vacib məqamlarını diqqətə çatdırıb. Bildirib ki, nəzarətçilərin hər biri təyin edilmiş vaxtda nəzarət zalında olmalı, işə gələn əməkdaşlar ad və soyadlarını yazaraq imzaları ilə təsdiqləməlidir.

Görüşdə iştirak edən imtahan-nəzarət qrupunun üzvlərinə tapşırıqlarını verən prorektor indiyədək yol verilən nöqsanların aradan qaldırılacağına, nəzarətçilərin öz işlərinə bundan sonra daha məsuliyyətlə yanaşacaqlarına əminliyini bildirib.

**ATU-nun mətbuat xidməti**

# Hacettepe Universiteti ilə əməkdaşlıq gücləndirilir

## Türkiyənin nüfuzlu universiteti ilə ATU arasında protokol imzalandı

**Tələbələrinə beynəlxalq standartlara uyğun təhsil vermək məqsədilə xarici əlaqələrini daim genişləndirən Azərbaycan Tibb Universiteti növbəti nüfuzlu ali məktəb - Türkiyənin Hacettepe Universiteti ilə əməkdaşlığı gücləndirir. Bu haqda universitetin rektoru Haluk Özenlə ATU-nun rektoru, professor Gəray Gəraybəyli arasında protokol imzalanıb.**



Bakıda səfərdə olan Hacettepe Universitetinin nümayəndə heyəti ilə ATU rəhbərliyi arasında görüş keçirilib. Görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli Azərbaycanın yaşlı ali məktəblərindən biri olan Tibb Universitetinin tarixi, fəaliyyəti, buradakı tədris sistemi haqqında ətraflı məlumat verdi. G.Gəraybəyli qeyd etdi ki, son illər tədris səviyyəsinin yüksəldilməsi üçün universitetdə bir sıra islahatlar həyata keçirilib, iki pilləli tədris sisteminə keçilib. Ölkə başçısının dəstəyilə yaradılan klinikalar nəinki yüksək səviyyəli müalicənin aparılması, həmçinin tələbələrin və rezidentlərin rahat tədrisinə böyük şərait yaradıb. Lakin hələ də bəzi məsələlərdə dəyişikliyə zərurət duyulur.

"Xüsusilə də tədris proqramının beynəlxalq standartlara uyğunlaşdırılmasına böyük ehtiyac var. Çünki ATU tələbələri mübadilə proqramları çərçivəsində Türkiyəyə və digər ölkələrə gedirlər. Lakin bu zaman proqramların uyğun olmaması ucbatından narahatlıq yaşanır. Gələcəkdə tədris proqramının tam beynəlxalq standartlara uyğunlaşdırılması tələbə mübadiləsinin genişlənməsinə, tələbələrimizin daha dinamik təhsilinə imkan verəcək", -deyən professor G.Gəraybəyli universitetdə həyata keçirilən digər islahatlar və qarşıda duran hədəflər, planlar barədə də danışdı.

Hacettepe Universitetinin rektoru, professor Haluk Özen bu ali məktəbin Ankaranın tibb fakültəsi əsasında yaradıldığın və ötən əsrin 60-cı illərində tam fərqli bir təhsil sistemi ilə işə başladığını bildirdi. Hazırda 14 fakültədən ibarət olan Hacettepe Universitetinin 5 peşə məktəbi, klinikaları, 100-dən çox araşdırma mərkəzi fəaliyyət göstərir. "Həmin vaxt bizim tətbiq etdiyimiz sistem çoxları tərəfindən qəbul edilməsə də, növbəti 20 il ərzində bütün Türkiyə bu sistemə keçdi. Düzdür, bildiklərimiz çoxdur, lakin mükəmməl deyilik, sizdən də öyrənəcəklərimiz var. Məsələn, tanış olduğumuz Anatomiya muzeyi bizi çox heyrətləndirdi. Bu cürü muzeyin yaradılması və saxlanması böyük zəhmət tələb edir". Professor Haluk Özen Azərbaycan Tibb Universiteti ilə tələbə mübadiləsi, tədris proqramının yenilənməsi və digər məsələlərdə əməkdaşlıq etməyə hazır olduqlarını bildirdi.

ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov hər il ATU-da türkiyəli mütəxəssislərin iştirakı ilə mühazirələr, təlimlər, beynəlxalq elmi konfransların təşkil olunduğunu bildirdi. R.Bəylərov gələcəkdə iki universitetin nümayəndələrinin birgə elmi işlər aparmasının mümkünlüyünü də söylədi.

ATU-nun beynəlxalq işlər üzrə prorektoru Nadir Zeynalov ali məktəblər arasında əməkdaşlığa dair memorandumun əsas istiqamətləri barədə məlumat verdi. Bura rezidentlərin və tələbələrin mübadiləsi, qarşılıqlı təcrübə, akademik araşdırma aparılması, tədris proqramının öyrənilməsi, mədəni proqramlarda işbirliyi, birgə konfrans və seminarların təşkili və digər məqamlar daxildir.

Görüşdə Hacettepe Universitetinin professor Yusuf Bayraktar, Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova, ATU-nun rektor müşaviri Zülfüqar



Musabəyov, ATU-nun tədris şöbəsinin müdiri Samir Cavadov, beynəlxalq əlaqələr şöbəsinin müdiri İkram Rüstəmov, İT şöbəsinin rəhbəri Rəmzi Əliyev iştirak edirdilər.

Görüşün sonunda Azərbaycan Tibb Universiteti və Türkiyənin Hacettepe Universiteti arasında əməkdaşlığa dair protokollar imzalandı. Qonaqlara ATU-nun döş nişanı və digər xatirə hədiyyələri təqdim olundu.

# ATU əlaqələrini daha da genişləndirir

**Bu günlərdə Türkiyənin Uludağ Universitetinin nümayəndə heyəti ATU-nun qonağı olub**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüş zamanı rektor qonaqlara tibb təhsilinin vəziyyəti haqqında məlumat verdi. Onun sözlərinə görə, bu sahədə ən böyük dönüş nöqtələrindən biri ATU-nun rezidentura sisteminə keçidi olub: "Artıq 7 ildir ki, ATU-da ikipilləli təhsil sistemi mövcuddur. Rezidentura təhsilinin köməyi ilə tələbələrimiz ixtisaslaşmış həkim adı alırlar".



Rektor G.Gəraybəyli ATU tələbələrinin mübadilə proqramları çərçivəsində Türkiyəyə və digər ölkələrə getdiklərini, lakin proqramların uyğunsuz olması səbəbilə problemlər yaşandiğını bildirdi. Bununla bağlı da artıq müəyyən işlərin aparıldığını qeyd etdi.

Uludağ Universitetinin rektoru, professor Yusuf Ulcay tanışlığa şad olduğunu bildirdi, əlaqələrin sıxlaşması üçün qarşılıqlı həkim, mütəxəssis mübadiləsinin vacib olduğunu dedi: "Bizlərdə hər iki tərəfdə iş görməyə həvəs var. Bizdə bir çox sahələrdə yaxşı mütəxəssislərimiz çalışır. Uludağ Universiteri beynəlxalq əlaqələrinə görə seçilir. 129 ölkədən 5000- ə yaxın xarici tələbəmiz var".

Uludağ Universitetinin tibb fakültəsinin professoru, qaraciyər transplantoloqu Ekrem Kaya ATU-nun Cərrahiyyə Kinikası ilə əlaqələrin olduğunu bildirdi. O, ATU nəzdindəki anatomiya muzeyini çox bəyəndiyini deyərək digər həmkarlarının da bu muzeylə tanış olmasının vacibliyini vurğuladı.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov, rektor müşaviri dosent Zülfüqar Musabəyov, Uludağ Universitetinin rektor köməkçisi, professor Mehmet Yüce, Azərbaycan Dövlət İqtisad Universiteti Türk Dünyası İşlətmə fakültəsinin dosenti, rektor müşaviri Ferruh Tuzcuoğlu iştirak edirdilər.

# Milli Ordumuzun 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans

**Hərbi tibb fakültəsinin tədris binasında Azərbaycan ordusunun yaradılmasının 100 illik yubileyinə həsr olunmuş "Hərbi təbabətin aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib.**





Konfransın gündəliyinə başlamamışdan öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himnimiz səslənəndən sonra, çıxış üçün söz Silahlı Qüvvələrin Baş Qərərgah rəisinin müavini, Döyüş Hazırlığı və Hərbi Təhsil İdarəsinin rəisi, general-leytenant Nizam Osmanova verilib.

Natiq ulu öndər Heydər Əliyevin 95, Azərbaycan Ordusunun yaranmasının 100 illiyi ərəfəsində belə bir konfransın keçirilməsinin əhəmiyyətindən danışıb. H.Əliyevin hələ sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi dövrlərdə və müstəqillik qazandığımız ərəfədə ölkəmizə qazandırdığı uğurlardan, hərb sahəsinin inkişafına verdiyi töhfələrdən çoxsaylı örnəklər çəkib: "Azərbaycanımızın milli təhlükəsizliyinin qorunması və ordu quruculuğunda ulu öndərin müstəsna xidmətləri var və bu, danılmazdır. O zaman general Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması olduqca çətin bir məsələ idi, məhz H.Əliyevin uzaqgörən siyasəti nəticəsində buna nail olundu. Həkim kadrların yetişdirilməsi də ölkənin hərbi qüdrətini artıran əsas amillərdən biri hesab olunur. Bu istiqamətdə də ulu öndər tərəfindən lazımi addımlar atılıb və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Natiq çıxışında Müdafiə Nazirliyi və ATU rəhbərliyinin diqqəti və həyata keçirdiyi tədbirlər nəticəsində hərbi-pedaqoji kadrların yetişdirilməsi üçün hər cür şəraitin yaradıldığnı da qeyd edib. Universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev konfransın keçirilməsi münasibəti ilə iştirakçıları universitetin rektoru, professor Gəray Gəraybəylinin və çoxminlli professor-müəllim heyəti adından təbrik edərək, bu konfransın olduqca tarixi əhəmiyyət kəsb etdiyini bildirib: "Məlumdur ki, Cümhuriyyət dövründə bu günkü Azərbaycanımızın həyatı üçün bir sıra fərmanlar, sərəncamlar imzalanıb və qərarlar qəbul edilibdir. Onlardan biri də ordumuzun yaranması üçün imzalanan fərman idi, hansı ki, bu günlərdə yaranmasının 100 illiyini qeyd edəcəyik."

Konfransın işinə uğurlar arzulayan S.Əliyev də ölkə həyatının müxtəlif sahlərinin inkişafında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərinin olmasından söhbət açıb və onun hələ sovetlər dönəmində milli kadrların yetişməsi üçün xüsusi diqqət və qayğı göstərdiyini qeyd edib. Sonra t.e.n. t/x polkovniki Niyazi İsayev, t.ü.f.d, t/x b/l-tı Sevinc Orucova, t.e.d.t/x p-k/l-tı Kənan Yusifzadə, t.e.d. Elçin Ağayev, t.ü.f.d. İlqar Ömərov, t.ü.f.d. Aynur Səfiyeva, t.ü.f.d. Tariyel Ömərov, t.ü.f.d. İradə Axundova, t/x m-ru Ramin Qafarov, t/x k-nı t.ü.f.d. Rəsul Əliyev, Səriyyə Həsənova, t.ü.f.d. Azər Hümmətov, t.ü.f.d. Sevinc Salahova, t.ü.f.d. Elman Əzimov, Seymur Mehdiyev, t/x p-k/l-tı Mürvət Qasımov, t/x p-k/l-tı Qabil Cəfərov, t.ü.f.d. Rəna Şirinova, t.ü.f.d. t/x m-ru Surxay Məmmədov, t.ü.f.d. Zülfiyyə İsmayılova, t/xp-k/-ntı Şücaət Əliyev və t.e.n Elman Tağıyev müxtəlif mövzularda elmi məruzələrlə çıxış ediblər. Konfrans geniş disskusiyya və sualcavab şəraitində başa çatıb. Sonda Hərbi tibb fakültəsinin rəisi, t/x p-ki Çingiz Əlləzov çıxış edib. Konfrans iştirakçılarına təşəkkürünü bildirən rəis, gələcəkdə atacaqları addımlara görə iştirakçılara uğurlar arzulayıb. Qaliblərə sertifikatlar təqdim olunub.

**ATU-nun mətbuat xidməti**

# "Heydər Əliyev və Azərbaycan Gəncliyi"

**Patoloji fiziologiya kafedrasında Gənclər və İdman Nazirliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və ATU-nun Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş konfrans keçirilib.**



Konfransda əvvəlcə dövlət himnimiz səsləndirilib. Mövzusu "Heydər Əliyev və Azərbaycan gəncliyi" olan konfransı ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Tural Əzizov açaraq Azərbaycanın



çiçəklənməsi, inkişafı və bütün dünyada tanınmasında ulu öndərin misilsiz xidmətlərindən, eləcə də onun gənclərə göstərdiyi xüsusi diqqət və qayğıdan danışıb.

Bundan sonra nümayiş olunan videoçarxda xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan Gənclərinin Birinci Forumundakı və ölkə başçısı cənab İlham Əliyevin forumun 20 illik yubileyindəki çıxışlarından fraqmentlər göstərilib.

ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev nəsillərə örnək olan dahi şəxsiyyətin təkrarsız, yorulmaz fəlayyəti barədə tələbələrə ətraflı məlumat verib. Heydər Əliyevin gənclərə tövsiyələrini xüsusi vurğulayan professor S.Əliyev ulu öndərin 1969-cu ildən başlayaraq tələbə qəbulu zamanı yol verilən neqativ halların aradan qaldırılması, şəffaflığın təminatı üçün çox ciddi tədbirlər gördüyünü xatırladıb. Bildirib ki, gənclərimizin Azərbaycanda ehtiyac olan ixtisaslar üzrə keçmiş SSRİ məkanında yüksək təhsil alaraq peşəkar kadrlar kimi Vətənə qayıtması da ulu öndərin adı ilə bağlıdır: "Həmişə həmin kadrlarla, tələbələrlə görüşlər təşkil edərdi. Onlara tövsiyəsi o olardı ki, heç vaxt Azərbaycanı təmsil etdiklərini unutmasınlar. Təhsillərini başa vurduqdan sonra mütləq Azərbaycana qayıtsınlar. Belə də olurdu. Həmin kadrlar ölkəmizdə çox vacib məsələlərin həllində birbaşa iştirak edirdilər".

S.Əliyev sonrakı dönəmlərdə də azərbaycançılıq ideologiyasını daim önə çəkən Heydər Əliyevin dilimizin dövlət dili statusu qazanması, milli-mənəvi dəyərlərimizin qorunması, müstəqilliyimizin yenidən bərpası və möhkəmləndirilməsindəki əvəzsiz xidmətlərindən söhbət açıb. Qeyd edib ki, universitetimizin maddi-texniki bazasının möhkəmləndirilməsi və universitet klinikalarının yaradılması da ulu öndərin xüsusi diqqət və qayğısı sayəsində mümkün olmuşdur.

S.Əliyev həkimlərin əməyini həmişə yüksək qiymətləndirən ulu öndərin daim gənclərimizin yanında olmasını, onları dəstəkləməsini də diqqətə çatdıraraq ölməz əməlləri ilə xalqımızın yaddaşında əbədi yaşayacağını deyib.

Konfransda Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı sədrinin müşaviri Hüseyn Babayev də çıxış edərək ittifaqın sədri, millət vəkili Şahin İsmayılovun salamını tədbir iştirakçılarına çatdırıb. Ulu öndər tərəfindən bünövrəsi qoyulan gənclər siyasətinin uğurlarından danışan natiq Azərbaycanda ayrıca Gənclər və İdman Nazirliyi ilə yanaşı, Azərbaycan Prezidenti yanında Gənclər Fondunun, Milli Məclisdə xüsusi gənclər və idman komitəsinin də fəaliyyət göstərdiyini, prezident administrasiyasında gənclər siyasəti və idman məsələləri şöbəsinin yaradıldığını vurğulayıb. Bildirib ki, bütün ali təhsil müəssisələrində və kolleclərdə fəaliyyət göstərən tələbə gənclər təşkilatları maarifləndirici layihələr, olimpiadalar, idman yarışları, sağlam həyat tərzinin təbliğinə aid seminarlar və təlimlər keçirirlər. Əldə edilən bu nailiyyətləri ölkədə hökm sürən sabitliyin, ulu öndərin siyasi kursunun layiqincə davam etdirilməsinin nəticəsi kimi dəyərləndirən H.Babayev gənclərimizi ilk növbədə görülən işlərin qədrini bilməyə, ən başlıcası vətənpərvər olmağa çağırıb.

ATU-nun I müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Rauf Vəliyev də öz çıxışında həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən Heydər Əliyevin tibb elmi və tibb təhsili sisteminə verdiyi töhfələrdən bəhs edərək Azərbaycan gənclərinin Heydər Əliyev ideyalarına daim sadiq qalacağını söyləyib.

**Türkiyə Cümhuriyyətinin Kars şəhərində yerləşən Kafkas Universitetində "Qafqaz Universitetlərinin 1-ci Elm və Mədəniyyət Festivalı" keçirilib. Festivalda Azərbaycan, Gürcüstan, Dağıstan (Rusiya Federasiyası), Özbəkistan və Qırğızıstanın müxtəlif universitetlərinin nümayəndələri iştirak etmişlər. Tədbirdə universitetimizi Beynəlxalq əlaqələr şöbəsinin müdiri İkram Rüstəmov və Mübadilə proqramları üzrə koordinator Müşfiq Orucov təmsil ediblər.**

# "Qafqaz Universitetlərinin I Elm və Mədəniyyət Festivalı"



Festivalın açılış mərasimində Kafkas Universitetinin rektoru, professor Sami Özcan qonaqları salamlayıb, Festivalın Qafqaz bölgəsi universitetlərinin qarşılıqlı əməkdaşlıq sahəsində fəaliyyətlərinin daha da güclənməsinə təkan verəcəyini bildirib.

Festival çərçivəsində universitet rektorlarının və nümayəndələrin rektor, professor Sami Özcan tərəfindən rəsmi qəbulu, İncəsənət fakültəsində rəsm sərgisinin açılışı, iştirakçı ölkə universitetlərinin musiqi kollektivlərinin geniş



konserti, qədim Ani xarabalıqlarına ekskursiya və s. tədbirlər həyata keçirilib.

Azərbaycan Tibb Universitetinin nümayəndələri İkram Rüstəmov və Müşfiq Orucov Kafkas Universitetinin Tibb Fakültəsini ziyarət etmiş, dekan professor Kemal Sarıca ilə görüşüb, Fakültənin bir neçə kafedrasında olublar. Görüş zamanı Azərbaycan Tibb Universiteti və Kafkas Universiteti Tibb Fakültəsi arasında ikitərəfli əməkdaşlıq protokolunun bağlanması, birgə elmi tədbirlərin keçirilməsi, professor-müəllim və tələbə həyətlərinin mübadiləsi və s. mövzularda müzakirələr aparılıb.

# ATU rezidentlərinin 6-cı (ATUREK 6) elmi-təcrübi konfransı

**Mayın 11-də Azərbaycan Tibb Universitetində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş ATU rezidentlərinin 6-cı (ATUREK 6) elmi-təcrübi konfransı öz işinə başladı. Konfransdan öncə ATU-nun rektoru, professor Gəray Gəraybəyli rezidentlərin hazırladığı posterlərə baxış keçirdi. Daha sonra tələbələrin ifasında universitetin himni səsləndirildi və konfras açıq elan olundu.**

Konfransda çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli tədbirin əhəmiyyətindən söz açdı. Rektor bildirdi ki, dünyanın bir çox ölkələrində baş verən geosiyası proseslərin mürəkkəbliyinə baxmayaraq, cənab prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində Azərbaycan beynəlxalq səviyyədə öz layiqli yerini tutmaqdadır. O qeyd etdi ki, ölkədə bütün sahələrdə olduğu kimi, tibb sahəsi də ildən-ilə inkişaf edir: "Artıq yeddinci ildir ki, Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti ölkədə tibb sahəsində strateji əhəmiyyət kəsb edən rezidentura təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması prosesində uğurla çalışır. Qeyd edim ki, 2011-ci ildən bu günədək ATU-nu 36 ixtisas üzrə 500-dək rezident bitirərək, həkim-mütəxəssis adını alıb və onlar respublikamızın müxtəlif klinikalarında, eyni zamanda bəzi kafedralarımızda assistent və doktorant kimi fəaliyyət göstərirlər. Məzun rezidentlərimizin həkim-mütəxəssis kimi yetişməsində universitetimizin müasir klinikaları və orada çalışan əməkdaşların rolu böyükdür".

Rektor G.Gəraybəyli qeyd etdi ki, hazırda universitetdə 30-dan çox ixtisas üzrə təqribən 530 rezident öz kliniki və elmi təcrübi bacarıqlarını artırır. Onun sözlərinə görə, hər il 70-dən çox rezident Türkiyənin təxminən 10 klinikasında, habelə Almaniya, İsveç, Norveç, Fransa və digər xarici ölkə xəstəxanalarında 3-10 ay müddətində rotasiyada olur: "Bəzi rezidentlərimiz isə öz rəhbərləri ilə bərabər həmin ölkələrdə elmi konfranslarda, simpoziumlarda iştirak edirlər. Eyni zamanda, hər ilin may ayında ulu öndər Heydər Əliyevin doğum gününə həsr edilmiş ATUREK adı altında rezidentlərin elmi-təcrübi konfransı keçirilir. Bu il artıq altıncı dəfədir ki, keçirilən elmi-təcrübi konfransımız əlamətdar bir dövrə təsadüf edir. Belə ki, respublikamızda həm ulu öndər Heydər Əliyevin 95-illiyi, həm də Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi qeyd edilir".




Qeyd edək ki, bu il ATUREK-6 adı altında keçirilən konfransa 25 ixtisas üzrə 150 elmi iş təqdim edilib, onlardan da 22 iş digər 9 bazaya aiddir. Artıq keçən ildən Azərbaycan Tibb Universiteti ilə bərabər digər bazalardan olan rezidentlər də öz elmi işləri ilə ATUREK-də fəal iştirak etməyə başlayıblar. Bu il həm də ilk dəfə olaraq pediatriya, kardiologiya, cərrahiyyə və şüa diaqnostikası ixtisasları üzrə seminarlar və kurslar təşkil edilib. Gələcəkdə bu kimi kursların sayının daha da artırılması nəzərdə tutulub.



Konfransın bağlanışında çıxış edən rezidentura şöbəsinin müdiri, professor Rizvan Məmmədov qazanılan uğurlardan danışaraq, tədbirin təşkilində fəallıq göstərən və mükafatlandırılan rezidentləri təbrik edib.

İki gün davam edən konfransın sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

**ATU-nun mətbuat xidməti**

# ATU-da II Azərbaycan-Türkiyə Kolorektal Cərrahiyyə Günləri



**ATU-nun Tədris Cərrahiyyə Klinikasında “II Azərbaycan- Türkiyə Kolorektal Cərrahiyyə Günləri” konfransı keçirilib.**

Klinikanın direktoru, professor Surxay Hadıyev iştirakçıları salamlayaraq konfransın proqramı və əhəmiyyəti barədə məlumat verib.

Azərbaycanın və Türkiyənin dövlət himnləri səslənib. Tanınmış cərrah, akademik Böyükkişi Ağayevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



E.S.C.P-nin Azərbaycan üzrə təmsilçisi, tibb üzrə fəlsəfə doktoru Aynur Səfiyeva ölkəmizdə kolorektal cərrahiyyənin tarixi inkişafı və müasir səviyyəsi, rəhbərlik etdiyi qurumun son iki ildə gördüyü işlər və iştirak etdiyi tədbirlər barədə hesabat verib: “Azərbaycanda Kolorektal Cərrahiyyənin əsasını prof essor H.Sultanov qoyub. Hal-hazırda Azərbaycan Kolorektal Cərrahiyyə məktəbi məhz onun adı ilə bağlıdır. ATU-nun nəzdində 2015–cı ildə Azərbaycan KolonRektum cərrahi dərnəyi yaradılmışdır. Dərnəyin yaradılmasında AMEA-nın müxbir üzvü, professor N.Bayramov və Ankara Tibb Universitetinin professoru E.Gecimin və professor X.Musayevin rolu olmuşdur. Azərbaycan Kolon-Rektum Cərrahiyə dərnəyinin ilk sədri isə professor X.Musayevdir.”

A.Səfiyevanın sözlərinə görə, Azərbaycan Kolon-Rektum Cərrahi Dərnəyi hər ayın son həftəsində mütəmadi olaraq toplantılar keçirib və müxtəlif mövzuları əhatə edən müzakirə və diskussiyalar aparıb. Dərnəyin iki illik fəaliyyəti dövründə say etibarı ilə 20 iclas keçirilib, müxtəlif klinikalarda çalışan həkim cərrahların mövzular üzrə çıxışları olub və gənc həkimlərin dərnəyin toplantılarında aktiv iştirakına şərait yaradılıb. Dərnək üzvlərinin sayı 100 nəfəri keçib.

Avropa Koloproktologiya Cəmiyyətinin prezidenti, Ankara Universitetinin professoru Ethem Gecim “Perianal fistullar zamanı cərrahi taktika”, “Büzdümün dermoid kistaları zamanı müasir müalicə prinsipləri”, Ankara Universitetinin professoru Ayhan Kuzu “Anarektal bölgənin anatomiyası”, “Babasil xəstəliyi və müalicəsi”, Azərbaycan Tibb Universitetinin professoru Eldar Əliyev “Perianal fistulların setonla müalicəsi”, Ankara Universitetinin dosenti Cihangir Akyol “Perianal abseslər nədir?”, “Anal çatlarda müalicə üsulları”, Azərbaycan Tibb Universitetinin dosenti Solmaz İmanova “Rektal prolaps” mövzularında məruzə ediblər.

Sonra məruzələr ətrafında müzakirələr aparılıb. Konfrans iştirakçılarına sertifikatlar verilib.

# İctimai fənlər kafedrasında ulu öndərin 95 illik yubileyinə həsr olunmuş tələbə elmi konfransı

**Azərbaycan Tibb Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib.**



Tədbirdə çıxış edən ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev tələbələrə Ulu Öndərin ideyalarını dərindən öyrənməyi tövsiyə edib, onun rəhbərlik etdiyi bütün dövrlərdə xalqının inkişaf və tərəqqisinə yönəlik görülmüş mühüm tədbirlərin əhəmiyyətini izah edib.



İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev konfrans iştirakçılarına Heydər Əliyevin həyat və fəaliyyəti haqqında məlumat verib, onun Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən danışıb: “Məhz Ümummilli Liderin müdrik siyasəti nəticəsində Azərbaycanın dayanıqlı inkişafının əsası qoyulub. Hazırda bu siyasətin uğurlu davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız güclü iqtisadiyyata, mədəniyyətə, tərəqqiyə nail olub. Beynəlxalq aləmdə xüsusi nüfuza malik müstəqil bir dövlətə çevrilib”.

Sonra yerli və xarici tələbələrin “Heydər Əliyev dahi şəxsiyyətdir”, “Heydər Əliyevin hakimiyyət illəri”, “Müstəqilliyimiz ümummilli lider Heydər Əliyevin nəsillərə əmanətidir” və digər mövzularda məruzələri dinlənilib.

Konfransın yekununda ən maraqlı səlis, məntiqli çıxış edən tələbələr mükafatlandırılıblar

**ATU-nun mətbuat xidməti**

# “Heydər Əliyev – 95”

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətlə silsilə tədbirlər keçirilib. ATU-nun Əsaslı kitabxanasında da Ulu Öndərin xatirəsi ehtiramla anılıb.**



Kitabxananın direktoru Ziyafət Eminova və hələ sovetlər dönəmində bir jurnalist kimi Heydər Əliyevin bənzərsiz fəaliyyətini maraqla izləyən Əsgər Əsgərov dahi şəxsiyyətin sarsılmaz siyasi iradəsindən, idarəçilik məharətindən, müdrik qərarlar vermək səriştəsindən söhbət açıblar.

Tədbir iştirakçıları kitabxananın foyesində yaradılan “Heydər Əliyev – 95” guşəsində Ulu Öndərin həyat və fəaliyyətini özündə əks etdirən kitablarla da tanış olublar.

# Dünya Birincili İmmun Çatışmazlıq həftəsi qeyd edilib

**İmmunitet – insan orqanizminin ətraf mühitdən daxil olan genetik yad maddələrdən və ya özünəməxsus “qocalmış”, zədələnmiş hüceyrələrdən, şiş hüceyrələrindən və s. amillərdən qorumaqdır. İmmun sisteminin iştirakı olmadan orqanizmdə heç bir patoloji proses baş verə bilməz. İmmun sistemin anadangəlmə patologiyası uşaqlarda daha çox müşahidə olunur və ağır fəsadlar verir. İmmun sisteminin genetik mutasiya ilə bağlı pozğunluğu Birincili İmmun Çatışmazlıq adlandırılır və bu patologiya nadir olsa da, bütün dünyada rast gəlinir.**



Bir çox ölkələrdəki kimi, 2011-ci ildən Azərbaycanda Tibb Universitetinin bir qrup professor-müəllim heyəti ölkəmizdə belə xəstələrin aşkarlanması, erkən diaqnostikası və müalicəsi ilə məşğuldur. Amma buna baxmayaraq, Azərbaycanda anadangəlmə immun çatışmazlığı xəstələrin sayı ilbəil artır. Qeyd etmək lazımdır ki, Respublikamızda xəstələrin qeydiyyatı və monitorinqi təşkil olunub və hazırda 105 uşaq və yaşlı xəstə nəzarət altındadır.

Artıq 5 ildir ki, Azərbaycanda Dünya Birincili İmmun Çatışmazlıq həftəsi qeyd edilir. Builki tədbir ATU-nun Elmi-Tədqiqat İmmunologiya Laboratoriyasının, allerqologiya və immunologiya kafedrasının əməkdaşlarının təşkilatçılığı ilə 27 aprel 2018-ci il tarixində keçirilib. Tədbirdə professor Gülnarə Nəsrullayeva, professor Amaliya Əyyubova, professor Lalə Allahverdiyeva, dosent və müəllimlər xəstələrin valideynləri ilə söhbət etdilər, onların suallarını cavablandırdılar. Valideynlər bu görüşlərin təşkilindən çox razı olduqlarını bildirdilər.

Görüşdə iştirak edən həkimlər bu növ xəstələrin həyat tərzi və müalicəsi haqqında yeni məlumatlar verdi, xəstəliklərin erkən aşkarlanmasında müasir diaqnostikanın mühüm yer aldığını vurğuladılar. Xəstələr müntəzəm olaraq təkrar müayinədən keçirlər, onlara aparılan müalicənin effektliyi analiz olunur. Görüşün sonunda hər bir uşağa xüsusi hədiyyələr bağışlandı və onlar rəngli şarları havaya buraxaraq öz istək və arzularını dünyaya çatdırdılar.



Daha sonra uşaqlar və valideynlər “Tom və Jerry” uşaq əyləncə mərkəzinə yola düşdülər, onlar üçün təşkil edilmiş nahar yeməyində və şənlikdə iştirak etdilər. Xəstə uşaqlar nağıl qəhrəmanlarının iştirakı ilə tamaşaya baxdı və oyun avtomatlarında oynadılar. Qeyd edək ki, belə görüşlərin keçirilməsi artıq ənənəvi hala çevrilib.

# Ağalar Bayramovun yaradıcılıq gecəsi

**Mayın 4-də Azərbaycan Tibb Universitetində əməkdar artist, “Qızıl qılınc” mükafatı laureatı, tanınmış qiraət ustası Ağalar Bayramovun yaradıcılıq gecəsi keçirilib.**

**Şair Vahid Əzizin məşhur misralarından götürülmüş “Mənə 100 il ömür arzulamayın” adlı bu gecənin əvvəlində Ağalar Bayramovun həyat və yaradıcılığına həsr edilmiş slayd-şou təqdim edilib.**



***“... Mənə yüz il ömür arzulamayın,***
***Xəzan yarpağı tək qovmasın külək.***
***Gözlərim görsə də, ayağım-əlim***
***Əsalıq olanda dayansın ürək.***

***Mənə “yüz il yaşa deməsin” dostlar,***
***Yerişim, gülüşüm, səsim itməsin.***
***Məndən cavan olan, gümrah olanlar,***
***Dünyada çiynimdə köçüb getməsin...” —***

misraları bu tədbirin fəlsəfəsinə çevrilərək iştirakçılarda bir kövrəklik, xüsusi bir ovqat yaratdı.

Ağlara Bayramov gecədə Azərbaycanın məşhur şairlərinin qələmə aldığı bənzərsiz poeziya nümunələrini həzin musiqi sədaları altında qiraət edərək, iştirakçıların ruhunda bir yenilik, bir canlanma yaradıb.



Pərəstişkarlarının sifarişlərini can-başla yerinə yetirən qiraət ustasına həsr olunmuş şeirlər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri Fərid Bağırov, Fidan Babayeva, Leyla Əsədullayeva tərəfindən yüksək peşəkarlıqala səsləndirilib. Eyni zamanda tanınmış müğənnilərin canlı ifaları tədbirə xüsusi bir rəng qatıb.

Əməkdar artistin yaxınları və həmkarları, tanınmış sənətçilər Ağadadaş Ağayev, Könül Xasıyeva, Gülyanaq Məmmədova, Gülüstan Əliyeva, Firuz Səxavət, Sədaqət Ulduz, Babək Niftəliyev və başqaları Ağalar Bayramovun yaradıcılığı haqqında fikirlərini söyləyiblər, ona xoş arzularını çatdırıblar.



A.Bayramov həmçinin tanınmışlarla bağlı maraqlı xatirələrini bölüşüb. Üsyankar şair Xəlil Rza Ulutürkün “Lefertofo” zindanında görüşünə gedən həyat yoldaşı Firəngiz xanıma həsr etdiyi “Gəldin” şeiri xalq artisti Ağadadaş Ağayevin ifasında da səslənib. Könüllər oxşayan misraların musiqili təqdimatı tamaşaçıların coşqusu ilə qarşılanıb:

*“...Qüdrət də, məhəbbət də, mətanət də ozunsən,*
*Yığdın dağınıq gülləri, bir cəm kimi gəldin.*
*Verdin... alıb içdim meyi... könlüm dağa döndü,*
*Dağdan tökülən nurlu şəlaləm kimi gəldin.*
*Aləmlərə bildir ki, Xəlil heç zaman ölməz,*
*Çün ovcuma əfsunlu piyaləm kimi gəldin.”*

Gecənin yekununda çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu gözəl tədbir üçün Ağalar Bayramova təşəkkürünü bildiribb. O, A. Bayramov sənətinin insanların zövqünü oxşadığını, onlarda xoş duyğular yaratdığını deyərək sənətçini ürəkdən təbrik edib, ona möhkəm cansağlığı arzulayıb.

A.Bayramov isə bu gecəni təşkil etdiyi üçün rektora və universitetin professor-müəllim heyətinə öz minnətdarlığını çatdırıb. Onun sənətinə verilən qiymətı Azərbaycan mədəniyyətinə verilən qiymət kimi dəyərləndirib.

Sonda universiet adından əməkdar artist Ağalar Bayramova hədiyyə təqdim olunub.

# ATU-nun Tədris Terapevtik Klinikasının pediatrı beynəlxalq Konqresdə iştirak edib

**Aprel ayında Türkiyədə Avropa Allerqologiya və Klinik İmmunologiya Akademiyasının dəstəyi ilə Pediatrik Allerqologiya və Pulmonologiya üzrə Beynəlxalq Konqres keçirilib.**



Ölkəmizi konqresdə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının pediatrı, dosent Məleykə Kərimova təmsil edib.

M. Kərimova konqresdə uşaqlarda təkrarlanan vizinq sindromunun yaranmasında opportunist infeksiyalarının rolundan bəhs edib.

Konqresdə Türkiyənin müxtəlif bölgələri ilə yanaşı, Böyük Britaniya, Danimarka, Fransa, İtaliya və s. Avropa ölkələri, eləcə də Cənubi Afrika Respublikası (CAR) da daxil olmaqla, ümumilikdə 3 minə yaxın nümayəndə iştirak edib.

M.Kərimova bildirib ki, uşaqlarda bronxial astma, allergik rinit, atopik dermatit, qida və dərman allergiyası, immun catışmazlıqlar, xronik öskürək, vizinq sindromu, iqlim və ekoloji amillərin tənəffüs sistemi və allergik xəstəliklərin yaranmasında rolu, peyvəndlərin aparılması, eləcə də uşaqlarda autoimmun xəstəliklər və s. kimi aktual mövzularda maraqlı məruzələr dinlənilib.

Əldə olunan yeniliklər nəzərə çatdırılıb, geniş diskussiyalar aparılıb.

Məruzəçilərdən prof.dr. Cezmi Akdış (İsveçrə), Adnan Custovic (Böyük Britaniya), Liam Omahany (CAR), Philippe Egeman ( Fransa), Mübeccel Akdış (İsveçrə), Bülent Şekerel ( Türkiyə) və digərlərinin çıxışları daha böyük maraqla qarşılanıb.

# “Terapevtik stomatologiya” adlı dərslik çap edilib

**Bu günlərdə Terapevtik stomatologiya kafedrasının əməkdaşları – professor R.Məmmədov, professor A.Paşayev, dosent B.Həmzəyev və assistent V.Həsənovun həmmüəllifliyi ilə “Terapevtik stomatologiya” adlı dərslik işıq üzü görüb.**

Dərslik konservativ stomatologiyanın bütün bölmələrini – fundamental bilgilər, kariyesologiya, endodontiya, parodontologiya və ağız boşluğu selikli qişa xəstəlikləri bölmələrini əhatə edir. Vəsait əsas etibarilə ATU-nun tədris proqramları əsasında tərtib edilmiş və stomatoloji təhsilin və praktik fəaliyyətin ən son nailiyyətlərini özündə cəmləşdirmişdir. Kitabdan tələbələr, rezidentlər, doktorantlar və o cümlədən də praktik həkimlər vəsait kimi istifadə edə biləcəklər.




Dərsliyin ingilis dilində tərcüməsi üzərində iş gedir və yaxın vaxtlarda tamamlanaraq ingilis dilində təhsil alan xarici və yerli tələbə, rezident və doktorantların istifadəsinə veriləcəkdir.

# Əməkdaşımız Naxçıvana ezam olunmuşdur



**Naxçıvan Dövlət Universiteti rəhbərliyinin məktubu və ATU rektorunun razılığı əsasında terapevtik stomatologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Vaqif Həsənov universitetlərarası təcrübə mübadiləsi məqsədilə Naxçıvana ezam olunmuşdur. Ezamiyyətin əsas məqsədi NDU-nun tərkibində 5 illik tarixi olan tibb fakültəsinin işi ilə tanış olmaq, son zamanlar ATU-da həyata keçirilən islahatları, tədrisdə olan yenilikləri mübadilə etmək və həftə boyunca silsilə mühazirələr, seminarlar və master-klaslar təşkil etmək idi. Məlumat üçün bildirək ki, NDU 108 ha sahəsi, 16 tədris kopusu olan və şəhərcik tipində fəaliyyət göstərən universitetdir. Orada ümumilikdə 58 ixtisas üzrə mütəxəssis hazırlanır. Tibb fakültəsi isə universitetin bir fakültəsi olaraq 4 ixtisas üzrə – müalicə işi, stomatologiya, əczaçılıq və tibbi profilaktika üzrə mütəxəssislər yetişdirir. Universitetdə tibb fakültəsinə qəbul hər ixtisasda 20 nəfər olmaqla, 80 nəfərdən ibarətdir. Amma qeyd edilməlidir ki, buraya yerli və xarici abituriyentlərin marağı ildən-ilə artmaqdadır.**



Ezam olunmuş əməkdaşımız V.Həsənov NDU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor Saleh Məhərrəmov və yardımçıları tərəfindən qəbul edilmiş, universitetdə ən gənc fakültə olan tibb fakültəsinin işinin təşkili, uğurlar və çətinliklər haqda fikirlərini bölüşmüşlər. Naxçıvan Muxtar Respublikası rəhbərliyi tərəfindən universitetin inkişafına həssaslıq nümayış etdirildiyi və təhsilə ən yüksək səviyyədə dəstək göstərildiyi vurğulanmışdır. Sonra yeni tibb binasının yeni dərs ilinə qədər açılacağının planlaşdırıldığı, bu binada stomatoloji tədrisin təşkili və inkişafına aid xüsusi iradənin olduğu qeyd edilmişdir. V.Həsənov təhsilin daha effektiv alınması üçün təchizat və təşkilati işə aid öz fikirlərini universitet rəhbərliyinə çatdırmışdır.

Görüş zamanı stomatoloji təhsilə aid son illərin nəşrlərini əhatə edən 90 ədəd dərslik və dərs vəsaiti ATU adından NDU-nun kitabxanasına hədiyyə olunmuşdur. Bu addım NDU-nun rəhbərliyi tərəfindən razılıqla qarşılanmış və bu dəstəyə görə ATU-nun rəhbərliyinə xüsusi təşəkkürlər ifadə edilmişdir.

Daha sonra isə silsilə mühazirələr, seminarlar və master-klasslar həyata keçirilmişdir. Belə ki, 5 gün ərzində hər gün bir mühazirə, bir seminar və bir master-klas olmaqla, silsilə tədris işləri yerinə yetirilmişdir. Stomatologiyanın müasir təşkili, stomatologiyanın ən aktual problem-mövzuları mühazirə, seminar və master klasların mövzusu olmuşdur. Bu gedişatda yerli mütəxəssislər – müəllimlər də iştirak etmiş, vaxtaşırı tədris-metodiki müzakirə və təcrübə mübadiləri aparılmışdır.

Aparılan dərslər tələbələr tərəfindən son dərəcə maraqla qarşılanmış, belə aləqələrin onlar üçün faydalı olduğu ifadə edilmişdir.

Sonda NDU-nun rektoru, AMEA-nın müxbir üzvü S.Məhərrəmov onların məktubuna müsbət cavab verdiyinə və kadr baxımından onlara göstərdiyi dəstəyə görə ATU-nun rektoru, professor G.Gəraybəyliyə təşəkkürünü bildirmiş və universitetlərarası əlaqələrin gələcəkdə də inkişaf etməsinin təhsilimizin keyfiyyətinin yaxşılaşmasına xidmət edəcəyini söyləmişdir.

**ATU-nun mətbuat xidməti**

# Quba və Qəbələdə məktəblilər müayinə olunub

**Azərbaycan Tibb Universitetinin həkimləri mütəmadi olaraq Azərbaycanın bölgələrində əhali arasında kütləvi müayinələrdə iştirak edirlər. İndiyədək müxtəlif rayon və şəhərlərdə əhalini narahat edən xəstəliklərlə bağlı aksiyalar təşkil olunub. Bu dəfə belə aksiya Quba və Qəbələ şəhərlərində keçirilib.**

Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının əməkdaşı, t.ü.f.d., cərrah-endokrinoloq Azər Hümmətovun başçılığı ilə universitetin Tədris Cərrahiyyə Klinikasının həkim və rezidentləri hər iki şəhərdə müayinələr keçiriblər. Onlar 15-17 yaşlı məktəblilər arasında qalxanabənzər vəzin xəstəliklərinin yayılma tezliyini müəyyən etmək üçün müayinələr aparıblar.

Müayinələr "Endemik düyünlü urun profilaktikası məqsədi ilə məktəblilər arasında qalxanabənzər vəzin ultrasəs müayinəsi və sidikdə yodun ekskresiyasının miqdarının təyini" layihəsi çərçivəsində baş tutub. "Azərduz" markasının təşkilatçılığı ilə baş tutan layihənin rəhbəri Azər Hümmətovun sözlərinə görə, öncə



məktəblilərə yodun orqanizmdə əhəmiyyəti, yodlaşdırılmış duzun istifadəsi haqqında maarifləndirici broşurlar paylanılıb.

Daha sonra 100-ə yaxın şagirdin qalxanabənzər vəzisinin ultrasəs müayinəsi aparılıb: "İlkin müayinələr nəticəsində orta yod çatışmazlığı bölgəsinə uyğun göstəricilər müəyyən edilib. Ultrasəs müayinəsinin nəticəsində həmin bölgənin məktəblilərində qalxanabənzər vəzin kolloid düyünləri daha çox askar edilib. Müayinə nəticəsində vəzidə dəyişiklik aşkarlanmış şagirdlərdə sidikdə yodun miqdarı analizi aparılıb.".

A.Hümmətov bildirir ki, bu cür müayinələrin təşkilinin böyük faydası var. Çünki aparılan müayinə və analizlər həmin bölgədə endemik urun ağırlıq dərəcəsinin və yod çatmazlığının dərəcəsinin aşkarlanması üçün effektiv profilaktik tədbirlərin işlənib hazırlanmasına köməklik edəcək.

Yod çatışmazlığı ilə bağlı xəstəliklər aktuallığını itirmir. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin təqribən 2 milyardı yod çatmazlığı olan bölgələrdə yaşayır. Dünyada 655 milyon insanda endemik ur, 43 milyonda əqli inkişaf geriliyi və 1570 milyon insanda yod çatışmazlığı xəstəliklərinin inkişaf riski mövcuddur. Yod çatışmazlığı insan sağlamlığına təsir edən ciddi patoloji dəyişikliklərə səbəb olur. Son illərdə bütün dünyada düyünlü ur daxil olmaqla qalxanabənzər vəzin xəstəliklərinin rastgəlmə tezliyi son illərdə artmaqdadır.

Qeyd edək ki, bundan əvvəl Şəkidə də müayinələr keçirilib. Layihənin məqsədi Şəki, Quba və Qəbələ bölgələrində gənc əhalinin kütləvi dispanzerizasiyası (klinik-laborator-instrumental) yolu ilə qalxanabənzər vəzin xəstəliklərinin yayılması səviyyəsinin öyrənilməsi, profilaktik-müalicə tədbirlərinin işlənilməsi, əhali və səhiyyə orqanları üçün praktik-metodik tövsiyələrin hazırlanmasıdır. Müayinələrin əsas məqsədi qalxanabənzər vəzin patologiyalarını vaxtında aşkar etməkdir.

# QIZLAR YATAQXANASINDAN REPORTAJ

## Bu məkanda tələbələrin təhlükəsizliyi üçün hər cür şərait yaradılıb

**Tələbəlik dövrünün qayğı və problemlərini vaxtilə tələbə olanlar daha yaxşı bilirlər. Əlxüsus da rayonlardan olub, kirayə və ya yataqxanalarda qalan tələbələrin qayğıları daha çox olur. Çünki bütün gündəlik problemlərini həll etmək onların öz öhdələrinə düşür. Hər bir tələbə yeməyi özü bişirir, paltarının təmizliyinə, səliqə-sahmanına fikir verir, üstəlik dərslərini hazırlayır.**

**Bir sözlə, tələbə dövründə bu cür qayğılarla üzləşənlər, sözün əsl mənasında, həyatın gerçək üzünü görmüş olur, həyata hazırlıqlı şəxs kimi yetişirlər.**













### İki oxu zalı sutka ərzində fəaliyyət göstərir

Necə deyərlər, "yaşamaq uğrunda mübarizə aparan" yataqxana sakinlərinin özlərinəməxsus bir yaşamı və dünyası olur. Bu sakinlərin tələbə qızlar olması isə həmin özünəməxsusluğa sanki ayrıca bir rəng qatır. Onların dərsdənkənar rəngarəng həyatları ilə yaxından tanış olmaq məqsədilə 2 saylı Qızlar Yataqxanasına yollanırıq. Zərif cinsin nümayəndələrinin məskunlaşdığı beşmərtəbəli bina öz xarici görünüşü ilə diqqəti cəlb edir. Yataqxananın komendantı Mehriban Ağabəyovadan bu məkanla bağlı məlumat əldə edirik. Onun bildirdiyinə görə, 61 otağı olan yataqxanada 157 tələbə məskunlaşıb. Burada Azərbaycan vətəndaşları ilə yanaşı, xarici vətəndaşlar da qalır. Onlardan 23-ü İran, 11-i Türkiyə, 2-si Ərəbistan, 1-i Afrika, 1-i Monqolustan vətəndaşıdır.

Otaqlar 1, 2, 3 və 4 nəfərlikdir. 1 nəfərlik 12, 2 nəfərlik 10, 3 nəfərlik 31, 4 nəfərlik isə 8 otaq var.

Birinci mərtəbədə camaşırxana fəaliyyət göstərir. Məişət otağı, birində 20, o birində 11 masa olmaqla 2 oxu zalı sutka ərzində tələbələrin istifadəsindədir. İstənilən vaxt tələbələr oxu zallarında dərslərini hazırlaya bilirlər. Fasiləsiz internet şəbəkəsi mövcuddur. Bütün mərtəbələrdə nəzarət kameraları quraşdırılıb. Tələbələr istirahət guşələrində istənilən vaxt televiziya verilişlərini izləyə bilirlər.

### "Lazım gələndə valideylərlə əlaqə saxlayıram"

Hər mərtəbədə isə duş kabinələri, hamam və mətbəx fəaliyyət göstərir. Tələbələr isti suyun verilişindən olduqca razıdırlar. 3 idmançı xanımla yataqxana yüksək səviyyədə mühafizə olunur. Axşam saat 11-dən etibarən girişə məhdudiyyət qoyulur. O zamana qədər tələbələr yataqxanada olmalıdır. Çıxış isə əslində sərbəstdir. Tələbələr harasa gecələməyə gedərsə, o zaman komendantın adına ərizə yazılır, məqbul sayılarsa, ərizələr qeydə alınır. M.Ağabəyovla söhbətimiz zamanı onda tələbələrin valideynlərinin əlaqə nömrələrinin olduğunu və lazım gəldikdə valideynlərlə əlaqə saxladığını da qeyd etdi: "Valideynlər övladları ilə görüşə istənilən vaxt gələ bilər. Əsasən də analar. Amma axşam saat 9-a kimi yataqxananı tərk etməlidirlər."

Mehriban xanım həmçinin yataqxanada ciddi şəkildə səliqə-sahmana və nizam-intizama nəzarət olunduğunu da vurğuladı:" Bəzən 4 nəfərlik otaqlarda səliqəsizliyə rast gəlirik. Amma görülən tədbirlər sayəsində məsələni yoluna qoya bilirik."

### Özlərini evdəki kimi hiss edirlər

Oxu zalına nəzər yetiririk. Bir rahatlıq hiss olunur. Orada olduğumuz müddətdə bir tələbənin dərs hazırladığının şahidi olduq. Öyrəndik ki, əczaçılıq fakültəsinin I kursunda oxuyan Fəvvarə Vəliyeva Şəmkir rayonundandır: "Güvənli olduğu üçün, valideynlərimin məsləhəti ilə qalmağa yataqxananı seçdik. Burada hər şey normaldır. Oxu zallarında rahat şəkildə dərslərimizi hazırlaya bilirik. Heç kim bir-birinə mane olmur. Növbəti illərdə də burada qalmaq istəyirəm. Otaqlarda səliqə-sahmana özümüz riayət edirik. Özümü evimizdəki kimi hiss edirəm."

Təhlükəsizliyin daha da effektli təminatı üçün hər mərtəbəyə tələbələr könüllü nəzarət edirlər. Onlardan biri də 2-ci mərtəbəyə səlahiyyətli olan, İctimai səhiyyə fakültəsinin II kurs tələbəsi Vüsalə Həsənovadır. O, əsasən mərtəbənin təmizliyinə, qaz, işıq, su sərfiyyatına diqqət yetirir. Sakitliyə riayət olunması isə başlıca şərtdir. V.Həsənova il ərzində hansısa xoşagəlməz hadisənin qeydə alınmadığını bildirdi. Ciddi nəzarət hesabına bütün bunlara nail olduğunu diqqətimizə çatdırdı.

Otaqların səliqə-sahmanı ilə tanış olmaq istəyirik. Xahişimizlə istədiyimiz otaqların birinin qarşısında dayanırıq. Üzümüzə qapını açan xanım-tələbə Rana Qədirzadənin İran vətəndaşı olduğunu və stomatologiya fakültəsinin I kursunda oxuduğunu öyrənirik. Bizi gülərüzlə qarşılayan R.Qədirzadənin səliqə-səhmanına söz ola bilməz. Qaldığı otaqda zərif əlləri ilə göz oxşayan bir gözəllik yaradıb. Söz atırıq ki, bəlkə, gəldiyimizi bilib, otağına əl gəzdirmisən. Xəbərsiz olduğunu söylədi: " Belə öyrənmişəm. Həmşə otağımı səliqəli saxlayıram. Otağım bir az dağınıq olanda özümü narahat hiss edir, tez yığışdırıram. Şəraitdən çox razıyam. Məni qane edəcək hər cür şərait var."

### Gigiyenik qaydalara riayət olunur

I MPF-nin VI kurs tələbəsi Esmira Orucova aşağı kurslarda da yataqxanada qaldığını bildirir. Əvvəlki şəraitlə indiki şərait arasında olan fərqi soruşuruq. Əvvəllər bu cür komfortun olmadığını qeyd edir: "Əvvəl hamam məsələsində problemlə üzləşirdik, ümumi bir hamam fəliyyət göstərirdi. İndi hər mərtəbədə hamam mövcuddur, kabinələrin sayı artırılıb. Əvvəl təmizliyə də o qədər fikir verilmirdi, həşəratlar olurdu. İndi hər şey qaydasındadır. Heç nədən narazılığım yoxdur. İsti-soyuq suyumuz var. Gigiyenik qaydalara, təmizliyə riayət olunur".

Tələbələrdən İlahə Abbasi, Aysel Əsgərli, Səlatın Quliyeva və adlarını çəkmədiyimiz digər tələbələrin də qaldıqları otaqların şəraiti ilə maraqlanırıq. Otaqları səliqəli saxladıqlarının bir daha şahidi oluruq. Biz elə bu cür də düşünürdük. Çünki harada xanım varsa, orada bir gözəllik, səliqə-sahman hökm sürür.

Rektorun qayğısı ilə əhatə olunduqlarından razılıqla söhbət açan tələbə qızlar Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun tez-tez yataqxanaya baş çəkdiyini, mövcud problemlərlə maraqlandığını qeyd edirlər.

### Kənar şəxslərin içəri daxil olmasına icazə verilmir

Sonda isə mühafizəçi xanım Zülfiyyə Şıxmedova yataqxananın mühafizəsinin necə təşkili ilə maraqlanırıq. Tələbələrin təhlükəsizliyinin əsas diqqət mərkəzində olduğunu bildirir: "Onlar tərəfimizdən etibarlı şəkildə mühafizə olunur. Kənar adamların içəri daxil olmasının qarşısı alınır və hansısa xoşagəlməz hadisə baş verməsin deyə ələmizdən gələni edirik." Tələbələrlə sağolaşıb arxayın şəkildə onlardan ayrılırıq. Ona görə "arxayın şəkildə" deyirik ki, şahidi olduq ki, bu məkanda tələbələrin təhlükəsizliyi etibarlı şəkildə qorunur. Onların dərslərini rahat şəkildə hazırlamaları üçün hər cür şərait yaradılıb. Bu da gələcəkdə savadlı mütəxəssislərin hazırlanmasına zəmin deməkdir. İnanırıq ki, özlərini evlərindəki kimi hiss edən tələbə qızlar arasında yaxşı alimlər də yetişəcək, yaxşı həkimlər də.

**Arif MƏMMƏDLİ,**
**Qabil AVDULLAYEV**
**Fotolar Cənnətalı Çingizindir**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri:**

- Normal fiziologiya kafedrası
- Ümumi gigiyena və ekologiya kafedrası
- Terapevtik stomatologiya kafedrası
- Tibbi-biologiya və genetika kafedrası
- Onkologiya kafedrası
- Əczaçılıq kimyası kafedrası
- II cərrahi xəstəliklər kafedrası

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**

**Telefon: 597-10-08, 597-41-69, 597-43-23.**

# Bahar aylarında ən çox narahatlıq doğuran hallar

**❍ Yazın gəlişi və havaların isinməsi təbiəti canlandırdığı kimi, bir sıra xəstəliklərin də fəallaşmasına səbəb olur. Gecələrin qısalması, günlərin uzanması, saatların dəyişməsi kimi faktorlar bədənin hormon tarazlığını dəyişərək yuxu nizamına təsir edir.**



AZƏRTAC xəbər verir ki, fəsil dəyişikliyi zamanı baş verən bəzi hallar orqanizmin kifayət qədər dincələ bilməsinə, davamlı yorğunluğa və unutqanlığa səbəb olur.

Yazda ən çox rast gəlinən problemlər içərisində allergik xəstəliklər birinci sırada dayanır. Statistikaya görə, dünyada hər on nəfərdən ikisi allergiyadan əziyyət çəkir. Allergik xəstələrin yaranma səbəbi havada uçuşan polen adlı çiçək tozlarıdır. Mövsümi allergiya nəticəsində gözdə qızartı, qaşınma və reaksiya ilə əlaqədar olaraq damar genişlənməsi əmələ gəlir. Bu baxımdan şiddətli yanma, işığa baxa bilməmək və bulanıq görmə yaranır.

Bahar aylarında sıx müşahidə olunan göz soyuqdəymələri sadəcə allergik mənşəli deyil, keçici də ola bilər. Tozlardan qorunmaq üçün yaz və yay aylarında gün eynəklərindən istifadə etmək məsləhətdir. Gözə əllə təmasdan mümkün qədər uzaq olmağa çalışmaq lazımdır. Bahar yorğunluğunun qarşısını almaq üçün günəşin erkən çıxmasından faydalanıb yuxudan tez oyanmaq ən mühüm məsələlərdən biridir. Hər gün eyni saatda yatıb qalxmağa çalışmaq, gündəlik həyatda daha fəal olmaq, sutka ərzində bir neçə dəfə idmanla məşğul olmaq, piyada gəzməyə üstünlük vermək, hazır qidalar əvəzinə təzə meyvə-tərəvəz qəbul etmək lazımdır. Psixoloji baxımdan toparlanmaq, müsbət əhvali-ruhiyyəyə köklənmək də bir sıra hallarda olduğu kimi bu problemin də qarşısını almağa müsbət təsir göstərir.

# Mayın 12-si Avropa Diş Əti Sağlamlığı Günüdür



**Avropada Diş Əti Sağlamlığı Günü hər il mayın 12-də Avropa Parodontoloqlar Federasiyasının təşəbbüsü ilə qeyd olunur. Bu günün yaradılması ictimaiyyətin qinqivit və parodontit kimi diş xəstəliklərinə daha çox diqqət ayırması məqsədi daşıyır. Onun başlıca hədəflərindən biri diş əti və onunla əlaqədar problemlər, eləcə də diş əti sağlamlığının vacibliyi haqqında məlumatın artırılmasıdır.**

AZƏRTAC xəbər verir ki, Avropa Diş Əti Sağlamlığı Günü həmin xəstəliklərlə mübarizə üzrə milli cəmiyyətlərin təşkil etdiyi beşinci məlumatlandırma günüdür.

Keçən il "Peridontal xəstəliyə birlikdə qalib gələk" şüarı ilə keçirilən beynəlxalq aksiya böyük uğur qazanıb: 27 milli cəmiyyətin iştirakı ilə keçirilən tədbir zamanı ictimaiyyətin məlumatlandırılması sahəsində xeyli iş görülüb, pulsuz periodontal skrininqlər təşkil edilib və xeyli kütləvi informasiya vasitələri bu barədə informasiya yayıb.

Bu il keçirilən Avropa Diş Əti Sağlamlığı Gününün əlaqələndiricisi Ksavye Struilu deyir: "Xatırlatmağı özümüzə borc bilirik ki, diş əti sağlamlığı orqanizmin ümumi sağlamlığın əsas amillərindən sayılır və onun xəstəliyi ictimai səhiyyənin aktual problemlərindən biri kimi hətta ürək-damar və serebrovaskulyar xəstəliklər də daxil olmaqla, çox ciddi xəstəliklərə səbəb ola bilər. Diş ətlərinin sağlamlığı bizə neçə-neçə həyatı xilas etməyə, sağlamlıq üçün narahatlıq doğuran bir sıra halları aşkarlamağa və vaxtında qarşısını almaqla yanaşı, tibbə sərf olunan milyardlarla vəsaitə qənaət olunmasına kömək edir".

# Mayın 8-i Beynəlxalq Talassemiya Günüdür

**❍ Hər il mayın 8-i dünyada Beynəlxalq Talassemiya Günü kimi qeyd edilir. Talassemiyanın ən ağır formalarına əksər hallarda qan qohumluğu olan nikahlarda təsadüf edilir. Bir-biri ilə yaxın qohum olan gənclərin ailə qurması gələcəkdə ağır patologiyalı, o cümlədən talassemiyalı uşaqların doğulmasına səbəb olur.**



AZƏRTAC xəbər verir ki, talassemiya xəstəliyi erkən təzahür etdiyi halda, uşağın fiziki və əqli inkişafının ləngiməsinə, üz skeletinin kobud dəyişikliyinə -kvadrat kəllə, yəhərvarı burun, dişlərin yerdəyişməsi, alt və üst çənələrin üst-üstə düşməməsi və bir sıra digər hallara səbəb olur. Həmin uşaqlarda bir qədər sarılıq müşahidə edilir və onlar tez-tez infeksion xəstəliklərə yoluxurlar.

Ağır talassemiya formalarında uşaqlar həyatlarını erkən dövrdə itirir, orta ağır talassemiya zamanı uşaqlar yetkin yaşa qədər yaşayırlar. Talassemiya zamanı qanın rəng göstəricisi aşağı enir. Qanda dəmirin miqdarı ya norma daxilində, ya da artmış olur. Eritrositlər patologiya nəticəsində vaxtından əvvəl parçalanır. Bir çox hallarda qanda zülalın miqdarı yüksəlir, dalaq isə böyüyür.

Valideynlərdən gen vasitəsilə uşağa keçən ağır irsi qan xəstəliyi olan talassemiya-genetik çatışmazlıq nəticəsində hemoqlobin sintezinin pozulması və xroniki anemiya ilə xarakterizə edilir.

Dəmir defisitli anemiyada dəmir preparatlarının qəbul edilməsi qanın tərkibinin yaxşılaşmasına səbəb olursa, talassemiya zamanı bu preparatların qəbul edilməsi xəstəyə zərərli təsir göstərir.

Talassemiya müalicə olunmayan xəstəlikdir. Xəstəyə qan köçürməklə onun vəziyyətini yüngülləşdirmək olur. Bu problemin daha bir müalicə üsulu isə sümük iliyinin köçürülməsidir.

*Şahmərdan ƏMİROV,*
*Tibbi fizika və informatika kafedrasının dosenti*

## Dünya

*(Vəfasız dünyanın və qəfil ölümün bizdən ayırdığı , tələbəlik illərindən üzü bəri dostluq etdiyim fizik-professor, Hacı Talətdin Bağırovun əziz xatirəsinə)*

"Ölüm haqdır çıxmaq olmur əmrdən"...
Qəfil gecə çox üzüldük xəbərdən.
Dağquşçu dağları fəryad qopardı,
Xəzər çalxalandı, bulandı dünya.

Günəş nur saçmadı Ayın özünə,
Çəkildi qara tül göyün üzünə.
Həmin gecə sayrışmadı ulduzlar,
Sıxıb əyləcini dayandı dünya.

Bizi özümüzdən ayrı salandı,
Hamının sonuna çıxandı dünya.
Nə cavan tanıyır, nə də ki qoca,
Bizləri torpağa qoyandı dünya.

Gözümüz nur alır uca varlıqdan,
Min rəngi seçirik rənglər içindən.
Həyatdan doymamış gözlər qapanır,
Gözlərə iynə tək batandı dünya.

Ömür sonludursa, dostluq əbədi
Qəlblərdə ucalmış onun məbədi.
Gözləyər bizləri Dağquşçu kəndi,
Sınaqdan çıxmağa məkandı dünya...

Dostlar son mənzilə yola saldılar,
Baxıb o məzara utandı dünya.
Siyəzən dağları ah-nalə çəkdi,
O gün qara rəngə boyandı dünya.

## Allah rəhmət eləsin!

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın assistenti Aynurə Cəfərovaya atası

**Həsən Həsənovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xarici dillər kafedrasının əməkdaşları kafedranın baş müəllimi Leyla Həsənzadəyə həyat yoldaşı

**Rauf Talışınskinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin I kurs, $717^{i-5}$ qrup tələbəsi Algburı Layth Hazım Kadhım oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin I kurs, $617^{a-2}$ qrup tələbəsi Qurbanlı Tükəzban Şahin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır

Hərbi tibb fakültəsinin IV kurs, $1111^{a}$ qrup tələbəsi Mirzəyev Sərxan Musa oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin VI kurs, $1142^{c}$ qrup tələbəsi Mikayıllı İlham Sahib oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $180^{c}$ qrup tələbəsi Al- majdavee Abbas Sattarın adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $117^{a-19}$ qrup tələbəsi Mirzəyev Həsən Qəzənfər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, $717^{a-4}$ qrup tələbəsi Süleymanova Şəhla İlham qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin I kurs, $817^{r-1}$ qrup tələbəsi Məmmədov Fəxrad Vaqif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, $802^{b}$ qrup tələbəsi Əlizadə Günel Yadulla qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin I kurs, $817^{a-3}$ qrup tələbəsi Cəbrayılova Nəzrin Zəfər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin IV kurs, $720^{a}$ qrup tələbəsi Əliyeva Fidan Novruz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

ATU-nun hazırlıq kursunun dinləyicisi Hüseyin Toğucun adına verilmiş dinləyici bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin II kurs, $641^{b}$ qrup tələbəsi Məmmədov Amil Elman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $168^{a}$ qrup tələbəsi Həsənova Günel Yaqub qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $9^{b}$ qrup tələbəsi Məmmədova Sevinc Abbas qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin IV kurs, $737^{a}$ qrup tələbəsi Arshad Zhila Cəfər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $703^{a}$ qrup tələbəsi Dadaşova Ramilə Tahir qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $369^{b}$ qrup tələbəsi Həziyeva Çiçək Azər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $39^{b}$ qrup tələbəsi Muradlı Arzu Təyyar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $242^{b}$ qrup tələbəsi Qasımova Sevda Zamir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin III kurs, 558-ci qrup tələbəsi Həsənov Kənan Nazim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin II kurs, $1126^{a}$ qrup tələbəsi Nəsirli Əli Rəfail oğlunun adına verilmiş tələbə bileti və müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $210^{a}$ qrup tələbəsi Əhmədzadə Təhminə Elman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $740^{a}$ qrup tələbəsi Ənvərli Toğrul Məhəmməd oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tibbiqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800